iki sahil

# Sahibkarlara dövlət dəstəyi gücləndirilir

## KORONAVİRUS PANDEMİYASINDAN ZƏRƏR ÇƏKMİŞ SAHİBKARLARA DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏ DƏSTƏYİ GÖSTƏRİLİR



Koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin diqqət mərkəzində olması ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Cənab İlham Əliyev bu çağırışı edir ki, mən dəfələrlə demişəm və həyat onu göstərir ki, biz elə işləməliyik, elə yaşamalıyıq, sanki biz post-neft dövründə yaşayırıq. Ona görə sahibkarlardan da çox şey asılıdır: "Biz bütün lazımi qərarları qəbul etdik, qanunvericilikdə lazım olan düzəlişləri edtik və edəcəyik. Ona görə indi sahibkarlar da ümumi işimizə uyğun fəaliyyət göstərməlidirlər və belə olan halda biz bu böhrandan da şərəflə çıxa biləcəyik."

Ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən, 14 aprel tarixinə İqtisadiyyat Nazirliyinə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVİD-19) pandemiyasından zərər çəkmiş 10.914 vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 16.502 fərdi (mikro) sahibkar, cəmi 27.416 vergi ödəyicisi müraciət edib. Muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi layihəsi çərçivəsində müraciət etmiş 10.914 vergi ödəyicisində çalışan muzdlu işçilərin sayı 124.510 nəfərdir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bu müraciətlərdən 78.068 işçini əhatə edən 8.487 vergi ödəyicisinin müraciətləri araşdırılaraq təsdiq edilib və ayrılacaq maliyyə vəsaitinin vergi ödəyicilərinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 33,78 mln. manat, o cümlədən 1-ci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 16,9 mln. manat təşkil edir. Aprelin 13-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 2.636 vergi ödəyicisinə 24.463 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 5,31 mln. manat vəsaitin köçürülməsi təmin edilib.

Ölkənin hərtərəfli inkişafında sahibkarlığın rolunu daim önə çəkən Prezident İlham Əliyev daim bu məqama diqqət yönəldir ki, inkişaf etmiş ölkələrə diqqət yetirsək, görərik ki, onların inkişafında kiçik və orta sahibkarlığın rolu böyükdür. Əgər biz də inkişaf etmiş ölkələr sırasında addımlamağı əsas hədəf seçmişiksə, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilməlidir.

Cənab İlham Əliyevin koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir zamanda sahibkarlığın inkişafına xüsusi diqqət yönəltməsi, iş yerlərinin bağlanmaması ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar verməsi və bu tapşırıqlar əsasında təsdiqlənən yardım proqramlarında sahibkarlara maliyyə dəstəyinin göstərilməsinin prioritetliyi bir daha təsdiqləyir ki, Azərbaycan hökuməti hər zaman olduğu kimi, bu gün də onların yanındadır, pandemiyadan zərər görməmələri üçün zəruri addımlar atır. Bu məqsədlə ölkə Prezidentinin Sərəncamı ilə Nazirlər Kabinetinə bir milyard manat vəsait ayrıldı, dörd işçi qrupu yaradıldı. Bu işçi qruplarının vəzifəsi məşğulluq məsələlərini həll etmək, iqtisadi sabitliyi təmin etmək, makroiqtisadi vəziyyəti sabit saxlamaq və maliyyə imkanlarını səfərbər etməkdir. 4 sektoru və 20 fəaliyyət sahəsini əhatə edən 10 proqrama əsasən, iqtisadi sabitliyin təmin edilməsinə, məşğulluqla bağlı problemlərin həllinə, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına lazımi məbləğdə vəsaitlər ayrıldı. Bu addımlar dövlətimizin başçısının "Biz mütləq həm xəstələrə sahib çıxacağıq və çıxırıq, həm də ki, iş adamlarına" fikirlərinin reallıqda təsdiqidir. Cənab İlham Əliyev koronavirus infeksiyasına qarşı mübarizənin ilk günündən qarşıya bu tələbi qoymuşdur ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər.

Bu kimi addımların davamı olaraq pandemiya bitəndən sonra tətbiq olunması nəzərdə tutulan yeni iqtisadi modeldə tikinti, dağ-mədən sənayesi, neft-kimya sənayesi, rəqəmsal iqtisadiyyat, nəqliyyat, ticarət, logistika, telekommunikasiya, daxili turizm, kənd tərərrüfatı və emal sənayesi iqtisadi siyasətin əsas prioritetləri olacaq. Dövlətimizin başçısı İlham Əliyevin İqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşündə nazir qeyd etmişdir ki, Azərbaycanın ixrac potensialının artırılmasına, genişlənməsinə, eyni zamanda, bölgələrdə daha çox iş yerlərinin yaradılmasına, onların müasirləşdirilməsinə və sənaye potensialının gücləndirilməsinə xidmət edən dağmədən sənayesi istiqamətində bir sıra layihələr hazırlanır. Onlar paket çərçivəsində təqdim ediləcək.

Neft sektorunun iqtisadiyyatımız üçün əsas sektor olaraq qaldığını önə çəkən ölkə Prezidenti bu məqamı da xüsusi qeyd edir ki, qeyri-neft iqtisadiyyatımızın inkişafı prioritetdir. İxracyönümlü məhsulların istehsalı artırılmalı, sahibkarlıq subyektlərində sertifikatlaşma prosesi davam etdirilməlidir ki, bizim məhsullarımız həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli olsun. Daxili istehlak daxili istehsal hesabına stimullaşdırılmalıdır: "Onu da bilməliyik ki, xarici bazarlara çıxmaq ildən-ilə daha da çətinləşir. Çünki bir çox ölkələr idxalı əvəzləmək siyasətini aparırlar. Ona görə, biz həm yeni bazarlar axtarmalıyıq, həm də məhsullarımızı daha rəqabətqabiliyyətli etməliyik. Eyni zamanda, çalışmalıyıq ki, daxili tələbatı maksimum dərəcədə yerli istehsalla təmin edək."

Pandemiya ilə mübarizənin dərinləşdiyi dövrdə Azərbaycan hökumətinin təqdim etdiyi iqtisadi və sosial paket neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkəmizin kifayət həcmdə maliyyə resurslarına malik olduğunu bir daha təsdiqləyir. Bu imkanlar, eyni zamanda, dövlətin sahibkarlara maliyyə dəstəyini göstərməsi bu fikri böyük inamla söyləməyə əsas verir ki, yaranmış vəziyyətdə biznes ictimaiyyətinin təmkinli davranış nümayiş etdirməsi üçün ciddi əsaslar vardır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***